**AZƏRBAYCAN DÖVLƏT IQTISAD UNIVERSITETI**

**Təsdıq edırəm:**
**“Maliyyə və audit” kafedrasının**
**müdiri prof. Ə.Ə.Ələkbərov**

**İmza:**
“_11_” _sentyabr_ _2025 -ci il

# ”ALİ İDARƏETMƏ HESABATLILIĞI” FƏNNI ÜZRƏ IŞÇI TƏDRIS PROQRAMI (Sillabus)

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| Fənnin kodu: | 00132 |
| Fənnin növü: | seçmə |
| Tədris ili: | 2025/2026 |
| Tədris semestri: | payız |
| Fakültə: | “Maliyyə və Mühasibat” |
| Qrup: | MH24-1, MH24-2, MH24-3. |
| Tədris yükü: | 60 saat (mühazirə/məşğələ -30/30) |
| Kredit sayı: | 6 (altı) |
| Kafedra: | “Maliyyə və audit” |

## II. Müəllim haqqında məlumat


| | |
|---|---|
| Fənni tədris edən müəllim: | i.e.d., prof. Hənifə Cəfərli |
| E-mail ünvanı: | jafarlihanifa1967@gmail.com |
| İş telefonu: | (012) 492 40 04 |
| Tələbələr üçün qəbul vaxtları: | Bazar ertəsi, saat $11^{00}$-$13^{00}$ |


Bu sillabus Mühasibat Uçotu sistemində aparılan islahatlar nəticəsində, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və Mühasibat Uçotuniun Beynəlxalq Standartları əsasında

hazırlanmış normativ-hüquqi və metodoloji bazaya, həmçinin milli və beynəlxalq standartların tədrisi üzrə müvafiq təlim-tədris materiallarına, Beynəlxalq Maliyyə Hesabatları Şurası (İFRS) və ACCA (The Association of Chartered Certified Accountants) – İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiyasiyasının tələblərinin məzmununa uyğun olaraq "Maliyyə və audit" kafedrasının dosenti Hənifə Cəfərli tərəfindən hazırlanmışdır.

## III. Fənnin təsviri

Bu fənn, seçmə fənnlər siyahısına daxil olmaqla, mühasibat uçotu və audit ixtisası üzrə bakalavr pilləsində təhsil alan tələbələrə Ali idarəetmə hesabatlılığının mahiyyəti, idarəetmə qərarlarının hazırlanmasında onun müstəsna rolu, metod və üsulları, informasiya mənbələrinin öyrənilməsi üçün lazım olan analitik bacarıq və vərdişlər aşılayır. Ali idarəetmə hesabatlılığı fənni müasir yanaşmaların formalaşması üçün ilkin tarixi şərtləri, müasir konsepsiyaları və metodları, həmçinin ali idarəetmə hesabatlarının tərtibi prosesində idarəetmə uçotu metodlarından istifadə, hesabatlarda məlumatların açıqlanması modelləri, habelə idarəetmə qərarlarının qəbulu üçün ali idarəetmə hesabatlarından alınan məlumatlardan istifadə kimi əsas bilik və anlayışları izah edir.

## IV. Fənnin məqsədi və vəzifələri

*Fənnin tədrisində məqsəd* - tələbələrə ali idarəetmə hesabatlılığının nəzəri əsasları və problemləri haqqında adekvat qavrayışı aşılamaq, ali idarəetmə hesabatlılığı sisteminə müasir yanaşmaları təhlil etmək, ümumiləşdirmək, formalaşdırmaq və onları beynəlxalq təcrübə ilə müqayisə etmək bacarığından ibarətdir.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- müasir iqtisadi şəraitdə ali idarəetmə sistemində ali idarəetmə hesabatlılığının iqtisadi mahiyyətinin açıqlanması;
- ali idarəetmə hesabatlılığı sistemlərinin yaranması şərtlərinin və informasiya təminatı sistemində istifadə olunan "ali idarəetmə hesabatlılığı" anlayışının müəyyən edilməsi;
- MHBS-nin tələblərinə cavab verən yüksək keyfiyyətli ali idarəetmə hesabatlılığı potensialının yaradılması.

## V. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## VI. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr: Bilməlidirlər:

- ali idarəetmə hesabatlılığı sisteminin yaranması üçün əsas ilkin şərtlər;
- beynəlxalq və yerli ali idarəetmə hesabatlılığı sistemlərinin inkişaf tendensiyaları;
- ali idarəetmə hesabatlılığına əsaslanan əsas maliyyə göstəriciləri;
- beynəlxalq standartlara uyğun olaraq ali idarəetmə hesabatlılığı məlumatlarının açıqlanması modelləri;
- ali idarəetmə hesabatlılığı sisteminə müasir yanaşmalar.

Bacarmalıdır:

- ali idarəetmə hesabatlılığının beynəlxalq və yerli sisteminin inkişaf istiqamətlərini müqayisə etmək;
- idarəetmə qərarları qəbul etmək üçün ali idarəetmə hesabatlılığı məlumatlarından istifadə etmək.

Malik olmalıdır:

- ali idarəetmə hesabatlılığın və onun elementlərinin formalaşdırılması bacarıqları;
- müəyyən bir təşkilat üçün ali idarəetmə hesabatlılığı modeli yaratmaq bacarığı.

Bacarıq və hazırlıqın nümayiş etdirilməsi:

- ali idarəetmə hesabatlılığı məlumatlarından istifadə edərək təşkilatda fırıldaqçılıq hallarını aşkar etmək və qarşısını almaq;
- yüksək keyfiyyətli ali idarəetmə hesabatlılığı potensialı yaratmaq üçün balanslaşdırılmış göstərici sistemindən istifadə etmək.

## VII. Prerekvizitlər

Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin də tədris olunması zərurəti yoxdur. Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənnlər aşağıdakılardır:

- Maliyyə uçotu; Maliyyə hesabatlılığı; İdarəetmə uçotu.

**VIII. Kursun proqramı**

Proqram 30 saatlıq mühazirə, 30 saatlıq seminar olmaqla 60 saatlıq tədris moduluna əsaslanır. Proqram yazılı formatlarda təqdim edilən mühazirə materialları, elektron əks-əlaqə (geridönüş) mexanizmləri, müzakirələr, tapşırıqlar, qrup işləri və sair kimi tədris alətlərinin tətbiqinə əsaslanır. Proqramın müddəti 15 həftədir.

**IX. Fənnin mühazirə mövzuları**

Mövzu 1. Ali idarəetmə hesabatlarının formalaşmasına müasir yanaşmanın ilkin şərtləri.

Mövzu 2. Ali idarəetmə hesabatlarının müasir konsepsiyaları və metodları.

Mövzu 3. Ali idarəetmə hesabatlarının tərtibi prosesində idarəetmə uçotu metodlarından istifadə.

Mövzu 4. Ali idarəetmə hesabatlarında məlumatların açıqlanması modelləri.

Mövzu 5. İdarəetmə qərarlarının qəbulu üçün ali idarəetmə hesabatı məlumatlarından istifadə.

Mövzu 6. . Ali idarəetmə (Maliyyə) hesabatlarının tərtib edilməsi mərhələləri.

Mövzu 7. Maliyyə vəziyyəti haqqında hesabat (Balans).

Mövzu 8. Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat.

Mövzu 9. Kapitalda dəyişikliklər haqqında hesabat.

Mövzu 10. Pul vəsaitlərinin hərəkəti haqqında hesabat.

Mövzu 11. Uçot siyasəti, uçot qiymətlərində dəyişikliklər və səhvlər.

Mövzu 12. Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlatı.

**X. Fənnin mühazirə mətnləri**

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

**XI. Əsas dərslik və dərs vəsaitləri**

1. Muhasibat ucotu haqqında Azərbaycan Respublikasının qanunu. Bakı-2004.
2. Maliyyə Hesabatlarının Beynəlxalq Standartları.
3. Maliyyə hesabatlarının hazırlanması. Təkmil səviyyə. Peşəkar mühasibatlıq kvalifikasiyası. Bakı, 2013, 888 s.
4. "Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi" (Beynəlxalq Müstəqil Standartları ilə birlikdə). Bakı-2019-cu il.
5. Azərbaycan Respublikasının Vergilər Məcəclləsi. Bakı, 2017.
6. "Mülki Məcəlləsi" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.

7. Maliyyə hesabatlarının beynəlxalq standartlarına əsasən mühasibat uçotunun aparılması qaydaları. (Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının "30" yanvar 2017-ci il tarixli Q-01 №li Qərarı ilə təsdiq edilmişdir).
8. S.M.Səbzəliyev. Maliyyə Hesabatları. Dərs vəsait. «İqtisad Universiteti» nəşriyyatı, Bakı-2018.- 312 səh
9. Ə.Ə.Ələkbərov, H.A.Cəfərli.. Maliyyə təhlil. Dərslik. «UNEC» nəşriyyatı, Bakı-2025. – 380 səh.
10. H.A.Cəfərli. İdarıetmə təhlil. Dərs vəsaiti. « İqtisad Universiteti» nəşriyyatı, Bakı-2018. – 234 səh.
11. H.A.Cəfərli. Maliyyə nəticələrinin təhlili. Metodik vəsait. «İqtisad Universiteti» nəşriyyatı, Bakı-2013.- 55 səh.
12. H.A.Cəfərli. Maliyyə vəziyyətinin təhlili. Metodik vəsait. «İqtisad Universiteti» nəşriyyatı, Bakı-2016- 135 səh.
13. Müslümov S.Y., Kazımov R.N. "Maliyyə təhlili". Dərslik: Bakı, "CBS", 2012. 246 s.
14. Devid Aleksandr, Anne Britton, Ann Yorissen. Maliyyə Hesabatının Beynəlxalq Standartları: nəzəriyyədən praktikaya. Tərcümə. «İqtisad Universiteti» nəşriyyatı, Bakı-2010. 763 s.
15. İdarəetmə, risk və etika. Peşəkar səviyyə 9-cu fənn. Bakı 2013.
16. Бабаев Ю. А. Петров А. М. Международные стандарты финансовой отчетности (МСФО): Учебник: ИНФРА-М, 2012. - 398 с.: 60x90 1/16. (переплет) ISBN 978-5-9558-0207-7, 1500 экз. ЭБС "Знаниум" http://znanium.com/catalog.php?bookinfo=329580

**İnternet qaynaqları:**

1. **http://www.maliyye.gov.az.** // (Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin rəsmi saytı).
2. **http://www.acca.co.uk.** // (Böyük Britaniya) Diplomlu mühasiblər assosiasiyası).
3. **http://www.apb.org.uk.** // (Böyük Britaniya) Mühasibat uçotunun aparılması praktikası üzrə komissiya).
4. **http://www.asb.org.uk.** // (Böyük Britaniya) Mühasibat uçotu üzrə koordinasiya komitəsi).
5. **http://www.bham.ac.uk. /EAA.** // (Böyük Britaniya) Avropa mühasiblər assosiasiyası).
6. **http://www.frcouncil.ru.** // (Maliyyə hesabatları şurası).
7. **http://www.gaap.ru.** // (Maliyyə və idarəetmə uçotunun nəzəriyyəsi və praktikası üzrə Maliyyə hesabatının beynəlxalq standartları layihəsi).
8. **http://www.iab.org.ru.** // (Beynəlxalq Mühasiblər Assosiasiyası).
9. **http://www.ipbr.ru.** // (Peşəkar Mühasiblər İnstitutu).

Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

## XII. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| 1 | Ali idarəetmə hesabatlarının formalaşmasına müasir yanaşmanın ilkin şərtləri. **- (2 mühazirə saatı, 2 seminar saatı)** | Ali idarəetmə hesabatlılığı anlayışı. Hesabatların ali idarəetmə vasitəsi kimi yüksək keyfiyyətli potensiala malik olması.<br>Ali idarəetmə modellərinin təkamülü.<br>Birləşdirilmiş (konsolidə edilmiş) və ali idarəetmə hesabatlarına ümumi yanaşmalar və onların fərqləndirici xüsusiyyətləri. | 15 (Bölmə A-B). |
| 2 | Ali idarəetmə hesabatlarının müasir konsepsiyaları və metodları. **- (2 mühazirə saatı, 2 seminar saatı)** | Şirkətin dəyəri haqqında ali hesabat konsepsiyası. Ali idarəetmə hesabatlarının formalaşdırılmasında yaradıcı (kreativ) metodlardan istifadə. Ali idarəetmə hesabatlarının şəffaflığı. Ali idarəetmə hesabat səviyyələrinin müqayisəli xüsusiyyətləri və qarşılıqlı əlaqəsi. Ali uçot siyasəti. | 15 (Bölmə A-B). |
| 3 | Ali idarəetmə hesabatlarının tərtibi prosesində idarəetmə uçotu metodlarından istifadə - **(2 mühazirə saatı, 2 seminar saatı).** | Ali idarəetmə hesabatlarının formalaşdırılmasında balanslaşdırılmış göstəricilər sistemindən istifadə.<br>Əsas maliyyə göstəriciləri (indikatorları), əsas göstəricilərin səmərəliliyi və onların qiymətləndirilməsi. | 15 (Bölmə A-B). |
| 4 | Ali idarəetmə hesabatlarında məlumatların açıqlanması modelləri **- (2 mühazirə saatı, 2 seminar saatı).** | Ali idarəetmə hesabatları informasiyanın açıqlanmasının beynəlxalq modelləri.<br>Təşkilatların ali idarəetmə hesabatlarına dair qaydalar və tələblər.<br>Genişləndirilmiş Ali İdarəetmə Hesabat Dili (XBRL), yüksək keyfiyyətli hesabatlılığ yaratmaq aləti kimi. | 15 (Bölmə A-B). |
| 5 | İdarəetmə qərarlarının qəbulu üçün ali idarəetmə hesabatı məlumatlarından istifadə **- (2 mühazirə saatı, 2 seminar saatı).** | Əsas istifadəçi qrupları üçün ali idarəetmə hesabatı məlumatlarının faydalılığı.<br>Elektron ali idarəetmə hesabatlılığı.<br>İnteqrasiya edilmiş hesabatlılığ.<br>Kriminal uçot və hesabatlılığı, onların inkişaf istiqamətləri.<br>Ali idarəetmə hesabatlılığı saxtakarlığının qarşısının alınması yolları. | 15 (Bölmə A-B). |
| 6 | Ali idarəetmə (Maliyyə) hesabatlarının tərtib edilməsi mərhələləri **- (2 mühazirə saatı, 2 seminar saatı).** | Maliyyə hesabatlarının təqdimatı, təyinatı və normativ tənzimlənməsi.<br>Maliyyə hesabatları niformasiyalarının istifadəçiləri.<br>Maliyyə hesabatlarının harmonizasiyası və standartlaşması probleminin aktuallığı və obyektivliyi.<br>Maliyyə hesabatlarının transformasiyasının MHBS-na uyğun olaraq aparılması zəruriyyəti.<br>Maliyyə hesabatlarının keyfiyyət göstəricilərinə və elementlərinə əsasən hazırlanması mərhələləri. | 1 (fəsil 1);<br>3 (A1-A6). |

| | | | |
|---|---|---|---|
| 7 | Maliyyə vəziyyəti haqqında hesabat (Balans) - **(4 mühazirə saatı, 4 seminar saatı).** | Maliyyə vəziyyəti haqqında hesabatın mahiyyəti və əhəmiyyəti. Balansın daxili qarşılıqlı əlaqəsi. Mühasibat balansının növləri və formaları. Mühasibat balansının maddələrinin qiymətləndirilməsi xüsusiyyətləri. Azərbaycanda və beynəlxalq praktikada balansların quruluş sxemləri. | 1 (fəsil 3); 3 **(**C2-C8); 7. |
| 8 | Mənfəət və ya zərər və dıgər məcmu gəlir haqqında hesabat - **(4 mühazirə saatı, 4 seminar saatı).** | Bazar iqtisadiyyatında mənfəət və zərər haqqında hesabatın əhəmiyyəti və məqsədli istiqaməti. Mənfəət və zərər haqqında hesabatın qurulması prinsipləri. Azərbaycanda və beynəlxalq praktikada mənfəət və zərər haqqında hesabatın qurulması sxemləri. Azərbaycanda və beynəlxalq praktikada mənfəət və zərər haqqında hesabatın qurulması göstəriciləri. Mənfəət və zərər haqqında hesabatın təşkilatların vergi orqanlarına təqdim etdiyi sənədlərlə qarşılıqlı əlaqəsi. MHBS əsasında mənfəət və zərər haqqında hesabatın tərtib olunması xüsusiyyətləri. | 1 (fəsil 4); 3 **(**C10); 7. |
| 9 | Kapitalda dəyişikliklər haqqinda hesabat - **(4 mühazirə saatı, 4 seminar saatı).** | «Kapitalda dəyişikliklər haqqında hesabat» üzrə kommersiya təşkilatları üçün 2 №-li MHBS-un ümumi müddəaları. Hesabatda istifadə edilən əsas anlayışlar. Kapitalın komponentləri, tanınması və qiymətləndirilməsi. Səhmlərin geri alınması və ləğv edilməsi. Kapitalın saxlanılması üzrə düzəlişlər, müvafiq təqdim edilmələr və açıqlamalar. | 1 (fəsil 5); 7. |
| 10 | Pul vəsaitlərinin hərəkəti haqqında hesabat - **(2 mühazirə saatı, 2 seminar saatı).** | Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın təyinatı və məqsədləri. Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın qurulmasının məntiqi ardıcıllığı. Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın məzmunu. Pul vəsaitlərinin axını və onların təsnifatı. Əməliyyat fəaliyyətindən alınan pul vəsaitlərinin hərəkitinin hesablanması metodları. | 1 (fəsil 6); 7. |
| 11 | Uçot siyasəti, uçot qiymətlərində dəyişikliklər və səhvlər - **(2 mühazirə saatı, 2 seminar saatı).** | Uçot siyasəti, onun təyinatı, məqsədi və tətbiq olunma sahəsi. Uçot siyasətində dəyişikliklər. Uçot siyasətində verilən məlumatların açıqlanması. Uçot qiymətlərində dəyişikliklər. Retrospektiv qaydada yenidən təqdim etməyə qoyulan məhdudiyyətlər. | 1 (fəsil 7); 7. |
| 12 | Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlatı - **(2 mühazirə saatı, 2 seminar saatı).** | Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatların təyinatı, məqsədi və tətbiq olunma sahəsi. Konsolidə edilmiş hesabatın qarşısında duran vəzifələr. Əsas | 1 (fəsil 8); 2 (fəsil 24); 3 (bölmə D). |

| | | | |
|---|---|---|---|
| | | (ana) müəssisə, övlad və asılı cəmiyyətlər anlayışı və onlara nəzarət növləri. Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatı və onun tərtib olunma prosedurları. Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatı. Birləşdirilmiş (konsolidə edilmiş) mühasibat balansı və mənfəət və zərər haqqında hesabatın struktutu. Xarici törəmə müəssisələrin birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatın xüsusiyyətləti. | |
| | **Yekun imtahan** | | |

**XIII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda smestr ərzində tələbənin bütün cavab balları toplanır və tələbənin cavablarının ümumi sayına bölünməklə orta qiymət (bal) hesablanır.

**XIV. Dərsə davamiyyət**

Tələbər dərslərin ən azı 75 faizində iştirak etməlidirlər. Bundan az dərslərdə iştirak edən tələbələr yekun imtahana buraxılmırlar.

**XV. Tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır. Balların bölgüsü aşağıdakı kimidir:

| İstiqamət | Ballar | Faiz |
|---|---|---|
| Seminar dərslərindəki cavablar və iştirak fəallığına görə | 20% | 20% |
| Aralıq imtahan | 30 | 30% |
| Yekun imtahan | 50 | 50 % |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə tələbənin bilik və bacarıqlarının attestasiyası bütünlüklə fənn üzrə 75 (yetmiş beş) sual üzərindən (hər mövzu üzrə 5 sual, keys  və ya tapşırıq olmaqla) qiymətləndirilərək aparılır.

Aralıq imtahanı 5 (beş) mövzu üzrə olmaqla 25 (iyirmi beş) sualı əhatə edir. Suallar nəzəri biliklərə və praktiki tətbiqə (tapşırıqların həlli) əsaslanır. Aralıq imtahanı yazılı formada təşkil edilir. Aralıq qiymətləndirmə zamanı tələbə imtahanda 3 (üç) sualı cavablandırmaqla (hər sualın cavabı maksimum 10 bal üzərindən olmaqla) maksimum 30 bal toplaya bilər.

Yekun qiymətləndirmə qalan mövzular üzrə 50 sual, keys  və tapşırıqlar üzrə keçirilir. Yekun imtahanı zamanı tələbənin biliyi 5 (beş) sualın cavabə əsasında (hər sualın cavabı maksimum 10 baı üzərindən olmaqla) maksimum 50 bal dəyərləndirilir.

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - “qeyri-kafi” – **F**

51-60 bal - “qənaətbəxş” – **E**

61-70 bal - “kafi” – **D**

71-80 bal - “yaxşı” – **C**

81-90 bal - “çox yaxşı” – **B**

91-100 bal - “əla” – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Tərtib etdi:**

**“Maliyyə audit” kafedrasının**

**professoru, i.e.d.** **Hənifə Cəfərli**